# Qonaqpərvər dövlət, mehriban xalq
















## Azərbaycan pavilyonu:
## COP29-un ən maraqlı ziyarət məkanı

**Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi "mavi" və "yaşıl" zonalar artıq 6 gündür ki, fəaliyyət göstərir. Hər gün hər iki zonada təyinatlarına uyğun vacib və maraqlı tədbirlər keçirilir.**

Bir neçə hissədən ibarət olan "mavi zona"da 26 görüş, yan tədbirlər üçün isə 9 görüş otağı ayrılıb. Hamısı da lazım olan texniki avadanlıqlarla təmin edilib. Xüsusi ərazilərdən biri pavilyonlar zonasıdır ki, burada 155 pavilyon müxtəlif ölkələri təmsil edir. Ərazidə qonaqların rahat şəkildə istədikləri yerlərə getmələri üçün xidmətlər mövcuddur. Ümumilikdə isə yerli və xarici qonaqlar, ziyarətçilər burada 350 tədbirin iştirakçıları və şahidləridir. İndiyə kimi Azərbaycanın dövlət qurumlarının bir neçə tədbiri keçirilib və onlar davam edəcək. Eyni zamanda burada qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların tədbirləri də həyata keçirilir. Ərazidə xarici ölkə nümayəndələrinin də pavilyonları var.

Ən böyük və maraqlı pavilyon isə Azərbaycana aiddir. Əlavə olaraq böyük pavilyonla təmsil olunan CAR, Çin, İndoneziyanın da adını çəkə bilərik. Qeyd edək ki, Çin pavilyonuna daha çox maraq var. Çünki Çin bu gün ticarət nəhənglərindəndir. Bu baxımdan onların pavilyonlarında keçirdikləri tədbirlərə Qlobal İqlim Cəmiyyətinin marağı yüksəkdir.

"Mavi zona" BMT-nin tabeliyində olan əsas hissədir və "yaşıl zona"dan fərqli olaraq bura tərəflərin nümayəndə heyətləri, dövlət başçıları, müşahidəçilər və akkreditə olunmuş media nümayəndələri daxil ola bilirlər. Məlumdur ki, dövlət qurumları ilə yanaşı, özəl sektorun da iqlim dayanıqlılığına böyük töhfəsi var. Onların səsi tək Azərbaycan üçün deyil, bütövlükdə dünya üçün vacibdir. Məhz bu səsi eşitmək üçün "yaşıl zona" yaradılıb.

"Yaşıl zona" isə müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və rəsmi "mavi zona" nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələrək ünsiyyət qurduğu məkandır. Bura həm də iştirakçıların iqlim fəaliyyətinə əlavə təkan vermələri üçün qarşılıqlı əlaqə quraraq fikir, təcrübə və bilik mübadiləsi apara biləcəkləri platformadır. Məkanın əsas sakinləri özəl və dövlət sektorları, QHT-lər, media nümayəndələri və gənclərdir. Onu da xüsusi vurğulayaq ki, "yaşıl zona" tədbirə evsahibliyi edən Azərbaycanın təşəbbüsü ilə yaradılan ərazidir.

Bakı Olimpiya Stadionunun yaxınlığında - "mavi zona"dan bir neçə yüz metr aralıda yaradılan pavilyonlar və sərgi stendlərindən ibarət olan "yaşıl zona"nın ərazisi 6500 kvadratmetrdir. Zonada 500 nəfərlik 4 konfrans zalı fəaliyyət göstərir ki, onlardan biri 200, üçü isə 70 nəfərlikdir. Burada 58 xarici və yerli şirkətin pavilyonu var. Bu zonaya giriş tam açıq və sərbəstdir, iştirakçılar, ziyarətçilər hər gün aparıcı qlobal təşkilatlar tərəfindən təşkil edilən məhsul və xidmətlərin nümayişi ilə yanaşı, müxtəlif təqdimatlar, seminar və brifinqlərin, habelə musiqi və mədəniyyət tədbirlərindən ibarət proqramların şahidi olurlar.

"Yaşıl zona"da ilk dəfə nümayiş olunan unikal "Daily show" verilişi COP29-un mərkəzindən yayımlanan və yüksəksəviyyəli qonaqlardan ibarət müxtəlif qrupları, eləcə də dinamik məzmunu özündə əks etdirən proqramdır. Bu televeriliş konfrans barədə məlumatların Bakının hüdudlarından xeyli uzaqlarda yayılması üçün bir sıra xəbər agentlikləri vasitəsilə bütün dünyaya yayımlanır. Qabaqcıl texnologiya və canlı yayım xidmətlərini də əlavə etsək, bu məkanın aktuallığı daha aydın olar.

Qlobal konfransa hazırlıqlar ərəfəsində "yaşıl zona"nın qurulmasını şərh edən COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova demişdir: "Dünyanın ən əhəmiyyətli iqlim konfransı kimi tanınan COP29 dayanıqlı və davamlı gələcəyə nail olmaq üçün beynəlxalq iqlim siyasətinin müzakirəsi, iqlimlə bağlı fəaliyyətlərin inkişafı və qlobal əməkdaşlığın təşviqi üçün əsas platforma rolunu oynayacaq. Builki "yaşıl zona" ilə bağlı planlarımız həm özəl, həm də dövlət sektorlarını təmsil edən təşkilatlara iqlim fəaliyyətinə əlavə təkan vermək məqsədilə bir-birləri ilə əlaqə quraraq fikir, təcrübə və bilik mübadiləsi aparmaq üçün müxtəlif ideal imkanlar təqdim edir".

Qeyd edək ki, COP29-da təqdim olunan pavilyonların ən maraqlısı Azərbaycana məxsusdur. Burada mədəniyyətlərin müxtəlifliyi, pavilyonların kreativliyi və konfrans iştirakçılarının unikal ekspozisiyaları təqdim olunur. Daha çox diqqətçəkən müxtəlif sənət nümunələrini özündə əks etdirən Azərbaycan mədəniyyətindən xəbər verən fotostend və sərgilərdir. Sərgilər arasında arxeoloji tapıntılar, Azərbaycanın xalçaları, milli geyimləri, artefaktlar, eləcə də məşhur amerikalı fotojurnalist Bred Uilsonun Azərbaycanda və dünyanın digər ölkələrində çəkdiyi vəhşi heyvanların fotoşəkillərini təqdim edən "Təbiətin rəmzləri" də var. İştirakçı dövlətlərin pavilyonları maketlərdə, afişalarda, panellərdə və hətta xalçalarda öz əksini tapmış mədəni xüsusiyyətləri, davamlı inkişaf fəaliyyətlərini və innovativ ekoloji həlləri əks etdirir. Ziyarətçilər ənənəvi sənətkarlıqla tanış ola, həmçinin milli xörək və içkiləri dada, milli incəsənət üzrə ustad dərslərində iştirak edə bilirlər. Onlar həmçinin xalçaçılıq, corab toxuma, yunəyirmə, keramika üzərində rəsmlər, təkəlduz və misgərlik kimi sənətlər üzrə əl işləri ilə tanış olurlar.

"Yaşıl zona"da turizm üzrə Azərbaycanın dayanıqlıq təcrübəsi də təqdim olunur. 200 kvadratmetrlik sahədə yerləşən stenddə xarici qonaqlara və media nümayəndələrinə Azərbaycanın turizm potensialı haqqında məlumatlar təqdim olunur, turizm imkanlarını əks etdirən interaktiv xəritə və ölkəmizlə bağlı promovideolar nümayiş etdirilir. Stenddə Azərbaycanın milli mətbəxi, çay dəsgahı mədəniyyəti, milli şirniyyatlar, yerli şərablar, o cümlədən yerli biomüxtəlifliyin qorunması prinsipinə əsaslanan "Slow food travel" konsepsiyası barədə təqdimat və dequstasiyalar keçirilir.

Azərbaycanın görməli yerlərinə virtual səyahət üçün nəzərdə tutulan VR (virtual reallıq) hissəsində qonaqlara Xınalıq, Yanardağ, Atəşgah, İçərişəhər, Şəki Xan sarayı, Göygöl və digər tarixi, mədəni məkanlara canlı şəkildə səyahət etmək imkanı yaradılır. Təqdimat zonasında isə ziyarətçilər üçün hər gün dağ yürüşü, quş müşahidəçiliyi kimi ekoturizm məhsulları, təbiət turizmi potensialı, işgüzar tədbirlər üzrə imkanlar, Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən maddi-mədəni irs nümunələri haqqında məlumat verilir. Qarşıdakı günlərdə də Azərbaycan turizminin təbliğinə həsr edilmiş müxtəlif təqdimatlar təşkil olunacağı nəzərdə tutulur.

COP29-un pavilyonlarında sərgilənən, xarici və yerli qonaqların diqqətini çəkən stendlərdən biri də elm, texnologiya və innovasiyaları özündə əks etdirən məhsullardır. Maraqlıdır ki, bu məsələdə gənclər daha çox fəaldırlar. Fakt: dünən COP29 çərçivəsində "Gənclərin rəqəmsal iqlim inqilabında iştirakının dəstəklənməsi" mövzusunda tədbir keçirilib. Bu cür tədbirlərin baş tutması sübut edir ki, ölkəmizin gəncləri rəqəmsal həllərin tətbiqində fəal iştirak edirlər. Onların innovativ ideyalarının və təkliflərinin reallaşdırılması isə iqlim fəaliyyətində mühüm dönüş nöqtəsi ola bilər. Panel iştirakçıları "Cisco" şirkətinin mütəxəssisi Mary De Vysocki, "BeWorks Automation" şirkətinin təsisçisi və baş icraçı direktoru Fidan Cavadova, mühafizəçi və WAFF gənclər nümayəndəsi Doreen Maykl diqqətə çatdırıblar ki, rəqəmsal texnologiyalar gənclərə iqlim dəyişikliklərinə təsir etmək üçün mühüm vasitələr təqdim edir. Vurğulanıb ki, bunun vasitəsilə gənclər ekoloji təsirlərə nəzarəti gücləndirmək, davamlı inkişafı təmin etmək və iqlim təşəbbüslərinə dəstək vermək istiqamətində əhəmiyyətli töhfələr verə bilərlər.

Tədbir çərçivəsində iştirakçılara qabaqcıl rəqəmsal platformalar, süni intellektlə işləyən həllər və real vaxt rejimində ətraf mühitin monitorinqini təmin edən innovativ proqram təminatları təqdim olunub. Bu vasitələr arasında məlumat əsaslı təbliğat vasitələri, iqlim məlumatlarının vizuallaşdırılması üçün istifadə olunan proqram təminatları və gənclərin iqlim fəaliyyəti sahəsində daha fəal iştirakına şərait yaradan rəqəmsal tətbiqlər xüsusi vurğulanıb. Rəqəmsal texnologiyaların iqlim dəyişikliklərinə qarşı mübarizədə tətbiqinin genişləndirilməsi, bu sahədə əməkdaşlığın gücləndirilməsi və rəqəmsal həllərin inklüzivliyin təmin edilməsindəki əhəmiyyəti ifadə edilib.

Könüllülər COP29-un "yaşıl" və "mavi" zonalarında fəaliyyətləri ilə ən çox diqqətçəkənlər sırasındadırlar. Tədbirə gələn hər kəsi ilk qarşılayan və "xoş gəldin" deyən gənc oğlan və qızlar səmimi və gülər simaları ilə yadda qalırlar. 3000 könüllü gəncin belə qlobal tədbirdə fəal iştirak etməsinin çox böyük önəmi var. Onlar iqlim dəyişikliyi ilə mübarizədə müasir texnologiya və innovasiyaları təqdim etmək potensialına malikdirlər. Gənclər COP-a yaradıcı yanaşmaqla ənənəvi metodlardan kənara çıxaraq, daha effektiv strategiyaların hazırlanmasına kömək edirlər. Burada onlar səslərinin eşidilməsi və qlobal iqlim siyasətlərinə inteqrasiya etmək üçün mükəmməl fürsət qazanırlar. Qeyd edək ki, könüllülər başqalarına kömək etmək və cəmiyyətə fayda vermək, öz bacarıqlarını yeni ortamda göstərmək, yeni dostlar taparaq əlaqələr qurmaq və özünə dəyər vermək hissini inkişaf etdirmək üçün bu addımı atırlar. COP29 könüllüləri məhz bu parametrlərin daşıyıcısıdırlar.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*














COP29 Baku Azerbaijan